# İnsanlar COVID-19-la mübarizədə məsuliyyətli davranmalı, özlərini və ətrafdakıları qorumalıdırlar

***Azərbaycan dövləti tərəfindən dünyada COVID-19-un pandemiya elan edilməsindən ötən müddət ərzində vəziyyət nəzarətə götürülüb, ölkəmizdə infeksiya ilə mübarizə sahəsində sistemli işlər aparılıb, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla gerçəkləşdirilib. Bütün bunlarla bərabər, postpandemiya dövrü ilə bağlı da önəmli qərarlar qəbul edilib. Koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən sistemli layihələr, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr qazanılıb. Hazırda Azərbaycanın yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı göstəricilər nümayiş etdirən ölkələr sırasında olması bunları təsdiqləyir. Görülən tədbirlərin əsas məqsədi isə insanların sağlamlığının və təhlükəsizliyinin təmin olunmasıdır.***



Prezident İlham Əliyevin reallaşdırdığı siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün ötən müddətdə bütün vasitələrdən istifadə edilib. Məhz bunun nəticəsində avqustun 5-dən sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin bir qisminin aradan qaldırılması mümkün oub. Bu zaman, həm də beynəlxalq təcrübə nəzərə alınıb. Belə ki, koronavirusla mübarizədə uğur qazanan və karantin rejimini aradan qaldıran ölkələrdəki kimi, sonrakı dövrdə infeksiyanın geniş yayılmaması üçün məhdudiyyətlərin mərhələli şəkildə ləğvi zəruriliyi diqqətdə saxlanılıb.

Bütün bunlarla yanaşı, qarşıda duran ən mühüm vəzifələrdən biri əldə olunan müsbət nəticənin qorunub saxlanması və möhkəmləndirilməsidir. Qarşıdan müxtəlif xəstəliklərin fəallaşdığı payız və qış mövsümü gəldiyinə görə, hazırda bu məsələ xüsusi aktuallıq kəsb edir. Ekspertərin fikrincə, tənəffüs yolları xəstəliklərinin törədicisi olan virusların soyuğa davamlı olduğundan payız fəsli xəstəliklərin yayılması və inkişafı üçün çox əlverişli dövrdür. Belə ki, soyuq hava bütün xroniki xəstəlikləri kəskinləşdirir, infeksion xəstəliklərin artıb çoxalmasına səbəb olur. Buna səbəb havanın temperaturu, atmosfer təzyiqi, küləyin təsiridir ki, bunun nəticəsində burun-udlaq və boğaz boşluğunda qripəbənzər respirator xəstəliklər yaranır.

Əlbəttə, belə bir şəraitdə insanlar təkcə soyuq havadan deyil, xəstə insanlardan, asqıran, öskürən şəxslərdən də qorunmalı, sosial məsafə saxlamalı, adamların çoxluq təşkil etdiyi yerlərdə maska taxmalıdırlar. Soyuq hava yuxarı tənəffüs yolları xəstəlikləri ilə yanaşı, mədə-bağırsaq, xroniki qastrit xəstəliklərini artırır, yoğun bağırsağın soyuqlamasını kəskinləşdirir.

Həkimlər bildirirlər ki, sıxlıq səbəbindən iri şəhərlərdə virusun insandan-insana keçməsi sürətlə baş verir. Yaxın məsafədə eyni hava ilə nəfəs almaq, eyni əşyalara toxunmaq yoluxmanı genişləndirir. Ona görə də Nazirlər Kabineti yanında operativ qərargahın tələblərinə əməl etmək, sosial məsafəni gözləmək, maskadan istifadə etmək, təmaslardan mümkün qədər qaçmaq zəruridir.

Xəstəliklə mübarizə məqsədilə profilaktik tədbirlərə də üstünlük verilməlidir. Bu məsələdə immuniteti gücləndirmək, idmanla məşğul olmaq, normal yuxu, sinir sistemini sakitləşdirmək, vitaminlər qəbul etmək mühüm önəm daşıyır.

Tibb mütəxəssisləri bildirirlər ki, COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədi ilə mütəmadi olaraq maarifləndirmə, təbliğat tədbirləri də davam etdirilməlidir. Başqa sözlə, iaşə müəssisələrinin fəaliyyəti Qida Təhlükəsizliyi Agentliyi, səhiyyə və iqtisadiyyat nazirlikləri, eləcə də icra hakimiyyətləri əməkdaşlarından ibarət yaradılan mobil qruplar tərəfindən nəzarətdə saxlanılmalı, obyekt sahiblərinə və sakinlərə sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl edilməsinə dair tövsiyələr verilməli, habelə müvafiq metodiki göstərişlər paylanılmalıdır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancının sözlərinə görə, hazırda dünya koronavirus pandemiyası ilə mübarizədə yeni mərhələyə daxil olur: “Payız aylarında ekspertlərin vurğuladığı kimi, koronavirusla bağlı vəziyyətə fərqli şəkildə yanaşılmalı, indiyə qədər öyrəndiyimiz hər şey yenidən gözdən keçirilməlidir. ÜST bundan sonra ümumi olaraq karantin rejiminin bütün ölkədə deyil, bölgə-bölgə reallaşdırmağı tövsiyə edir”.

ÜST-ün nümayəndəsinin fikrincə, koronavirusla mübarizənin lokallaşdırılması üçün bütün ölkələrin hansı bölgələrdə xəstəlik vəziyyətinin necə olduğuna dair geniş, əsaslı məlumat toplaması vacibdir. Yəni, epidemioloji sistemlərinin etibarlı olması lazımdır. Əlbəttə, təmasların izlənilməsi də diqqətdə saxlanılmalıdır. Başqa sözlə, bir şəxs xəstə olduğu zaman kimlərlə təmasda olubsa, onlara da nəzarət edilməsi, xəstəliyi başqasına yoluxdurmasının qarşısının alınması son dərəcə önəmlidir. Ölkələr qarşıdakı günlər və aylarda normal həyata qayıtmanın yollarını da axtarılmalıdır. Bu, normal sosial və iqtisadi həyat davam edərkən, eyni zamanda, yoluxmanın qarşısının ala bilinəcəyi bütün qaydaların istifadəsi mənasına gəlir. Məsələn, küçədə gəzmək sərbəst olacaq, ancaq insanlar gigiyena qaydalarına riayət edəcək, ara məsafələrini qoruyacaqlar”.

Ekspertlər bildirirlər ki, mövcud sanitar-epidemioloji vəziyyət bütün sahələrdə olduğu kimi, təhsil sistemində də reallıqları dəyişib. Təhsil müəssisələrinin fəaliyyətinin dayandırılması təbii ki, uşaqların istər intellektinə, istərsə də mənəvi-psixoloji vəziyyətinə bu və ya digər formada təsir edib.

Ümumiyyətlə, ötən tədris ilində koronavirus səbəbindən şagirdlərdə geriləmə müşahidə olunub. Mövcud vəziyyətdən çıxış yolu, ilk növbədə, sanitar-epidemioloji vəziyyəti nəzərə almaqla adekvat addımların atılmasındadır. Məlumdur ki, yoluxmanı lokallaşdırmağa müvəffəq olan ölkələrdə ümumtəhsil müəssisələrinin fəaliyyəti bərpa olunur. Ölkəmizdə də həyata keçirilən kompleks tədbirlər nəticəsində təhsil müəssisələrinin fəaliyyətinin müəyyən çərçivədə bərpasına şərait yaranıb. Təbii ki, fəaliyyəti bərpa olunan müəssisələrdə təhlükəsizlik qaydalarının tətbiqi mütləqdir. Artıq mütəxəssislərin də söylədiyi kimi, tədrislə bağlı fərqli sxemlərin tətbiqi mümkündür. İlk növbədə, uşaqların sağlamlığının təmin olunması və virusun yayılmasının qarşısının alınması başlıca şərtdir.

Təhsil naziri Emin Əmrullayevin COVID-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı keçirdiyi brifinqdə də bu barədə ətraflı danışılıb. Təhsil naziri hazırda dünyada 63 ölkədə məktəblərin artıq fəaliyyətə başladığını, 55 ölkədə açılacağının elan olunduğunu, 39 ölkənin isə bununla bağlı hələ qərar qəbul etmədiyini bildirib. E.Əmrullayev daha sonra Azərbaycanda təhsil müəssisələrinin sentyabrın 15-dən mərhələli şəkildə açılacağını, bununla əlaqədar koronavirusdan qorunmaq məqsədilə müəyyən ciddi tədbirlərin gerçəkləşdiriləcəyini, məsələn, məktəb binasına daxil olarkən həm müəllimlərin, həm də şagirdlərin hərarətinin ölçüləcəyini, tibbi maskalardan istifadə ediləcəyini, sosial məsafənin gözləniləcəyini, dezinfeksiya işlərinin daim diqqətdə saxlanılacağını da vurğulayıb.

Təhsil müəssisələrində xüsusi risk qrupuna daxil olan müəllimlər əməkhaqqı saxlanılmaqla tədrisdən uzaqlaşdırılacaq. Həmin müəllimlər digərləri ilə əvəz olunacaqlar. Məqsəd isə müəllimlərin sağlamlığının qayğısına qalmaqdır.

Uşaqlarını məktəbə göndərmək istəməyən valideynlərlə də xüsusi razılaşma aparılacaq: “Valideyn məlumatlandırılacaq ki, minimum birinci yarım il ərzində şagird valideynin nəzarəti altında həm teledərslərə baxmalı, həm məktəbin təşkil etdiyi “virtual dərslər”də iştirak etməlidir. Xüsusi karantin rejimi dövründə Təhsil Nazirliyi tərəfindən teledərslər və “Virtual məktəb” layihələri də davam etdiriləcək. Şagird mütəmadi olaraq məktəbdə keçirilən seyrək cədvəllə də olsa, kiçik və böyük summativ qiymətləndirmələrdə gəlib iştirak etməlidir ki, onun birinci yarım il üzrə attestasiyası nəzərə alınsın. Bir qrup valideynin uşağını məktəbə göndərməyəcəyini də nəzərə alsaq, şagird sıxlığını azalda biləcəyik”.

Brifinqdə, həmçinin xatırladılıb ki, əgər pandemiya kəskinləşərsə, məsələ lokal xarakter daşıyacaq, yeni bütün təhsil müəssisələri yox, kütləvi yoluxmalar olan məktəblər bağlanacaq.

Brifinqdə uşaq bağçalarının da sentyabrın 15-dən mərhələlərlə fəaliyyətə başlayacağı bildirilib. Bu zaman körpələrin qidalanması və eyni otaqda yatmaları böyük yoluxma riski yaratdığına görə, uşaq bağçalarının fəaliyyətinin yalnız “sarı” zonalarda bərpa olunacağı məqsədəuyğun hesab edilib.

Pandemiya dövründə seroloji testlərin aparılması da əhəmiyyətli məsələdir. Mütəxəssislərin fikrincə, bu, ölkədə məlum olmayan yoluxma və xəstəliyin xəbərsiz keçirilməsi baxımından reallaşdırılan müayinələrdən biridir. Həmin testlərin başqa faydaları da var. Orqanizmdə anticisimlərin miqdarı ilə bundan sonra baş verə biləcək ikinci yoluxmaya qarşı müqavimət gücü haqqında məlumat əldə etməyə imkan verir. Həmçinin daha əvvəl virusa yoluxanların siyahısı məlum olduğundan, onların qanından istifadə edərək ağırlaşmış xəstələrin müalicəsi həyata keçirilə bilir.

Göründüyü kimi, əldə edilən müsbət nəticələr və virusla mübarizədə qazanılan uğurlar göstərir ki, dövlətimiz koronavirusun aradan qaldırılması məsələsinə xüsusi önəm verir. Təbii ki, vətəndaşlarımız da məsuliyyətlə davranaraq balansın qorunması, virusla mübarizədə birliyin nümayiş etdirilməsi üçün müəyyənləşdirilən qayda və tövsiyələri yüksək səviyyədə diqqətdə saxlamalıdırlar.

Şübhəsiz ki, qarşıdan gələn dövrdə də əhalinin sosial tələbatlarının qarşılanması, iqtisadi sabitliyin qorunması və əhalinin sosial problemlərinin həlli üçün əlavə tədbirlər görüləcək. Vətəndaşlar isə COVİD-19-la mübarizədə məsuliyyətli davranmalı, özlərini və ətrafı qorumalıdırlar.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***